# Erkən gənc yaşlı Daun sindromlu şəxslərin psixi və fiziki xüsusiyyətləri

**Günay Bədəlzadə**
*ARTİ-nin fəlsəfə doktoru hazırlığı üzrə əyani doktorantı*
**E-mail:** *gunay.badalzade@mail.ru*

**Rəyçilər:** ped.ü.f.d., dos. N.T. Hüseynova,
ped.ü.f.d., dos. S.R. Aslanova

**Açar sözlər:** Daun sindromlu şəxslər, erkən gənc yaşlı Daun sindromlu şəxslər, psixoloji xüsusiyyətlər, fiziki xüsusiyyətlər, cinsi tərbiyə, psixoloji-pedaqoji yardım, adaptasiya

**Ключевые слова:** люди с синдромом Дауна, психологические характеристики, физические характеристики, сексуальное воспитание, психологическая и педагогическая помощь, адаптированный

**Key words:** persons with Down syndrome, adolescent with Down syndrome, psychological characteristics, physical characteristics, sexual education, psychological and pedagogical help, adaptation

Qədim sənət əsərlərindəki dəlillər sübut edir ki, trizomi 21 olan insanlar çox illər əvvəldən də mövcud olmuşlar. Lakin 1866-cı ildə Con Longdan Daun ilk dəfə müayinə etdiyi əqli gerili bir qrup xəstəsindəki üz quruluşlarına görə oxşarlığı kəşf edərək onları ayırdı. Təəssüflər olsun ki, bir əsrdən çox müddətdə onların görünüşlərini fərqləndirmək üçün “monqoloid” termini istifadə olunmuşdur. Daun sindromlu insanlar və onların yaxınları olan insanlar, bu xromosom vəziyyətini təsvir etmək üçün istifadə olunan sözlərə çox həssasdırlar. 1959-cu ildə Daun sindromunun xromosomal anomaliyası əsasının müəyyən edilməsi ilə, 21-ci xromosom anomaliayasına olan münasibət tədricən dəyişməyə başladı. Həmin dövrlərdə cəmiyyətdə daha çox yayılan “humanistlik” ideyaları bəzi müzakirələrin sona çatması üçün çox işlər görmüşdür.

"Monqol" terminini istifadə etməklə yanaşı, ”Daun sindromundan əziyyət çəkən şəxs” termini də mübahisəli məsələlərdən biridir. Bu ifadə humanistliyə zidd olaraq, onları cəmiyyətə acı çəkən biri kimi təqdim edir. "Daun sindromlu bir şəxs" sözü normalara uyğun olaraq qeyri-pejorativdir və xəstənin, həqiqətən, bir şəxs olduğunu xatırladır.

Daun sindromu əqli geriliyin daha çox yayılması ilə müşahidə olunur, təqribən üçdə biri qədər. Bütün irqlərdə bərabər olaraq təqribən 800 doğumdan 1-də müşahidə olunur.

Daun sindromlu erkən yaşlı gənclərin də həmyaşıdları kimi bir sıra ehtiyacları, bacarıqları və istəkləri vardır. Bəziləri peşəyə yiyələnib işləyir, münasibətlər qurur və hətta müstəqil yaşaya bilirlər. Bəziləri isə gündəlik işlərdə qayğıya ehtiyaclıdırlar. Lakin buna baxmayaraq, müəyyən bir işdə günün az hissəsini işləyə bilərlər. Bu onların ictimaiyyətə qoşulub sosiallaşmasına müsbət təsirini göstərəcəkdir. Xüsusi dəstək sayəsində onların həyatı maraqlı, aktiv və səmərəli ola bilər. Onlar üçün xüsusi proqramlar var ki, iş və yaşayış həyatlarına kömək edir.

Daun sindromlu olmaq o demək deyil ki, erkən gənclik dövründə baş verən hormonal proseslər onlara təsir etməsin. Normal insanlar kimi onlarda da hormonal dəyişikliklər baş verir. Bu fazanın inkişafında olan bütün ağır sınaqları və çətinlikləri müzakirə olunmalıdır.

Bunlara öz şəxsi müəyyənliklərini dərk edən, bir neçə özünəməxsus məkan tapıb, öz maraqlarını izləyən gənclər daxildir.

Əlilliyi olan insanlar cinsi varlıqlardır və Daun sindromlu şəxslər də istisna deyildir. Daun sindromlu şəxsləri ömrünün sonuna kimi “həmişə xoşbəxt uşaq” adlandırmaq valideynlərin də razılaşmayacğı bir vəziyyətdir. Daun sindromlu gənclər bütün emosiyalara sahibdirlər, öz arzuları, duyğuları vardır. Çox vaxt öz arzularını ifadə edə bilmirlər və bu onları çox hüznləndirir. Onları tədqiq edərkən bəzi spesifik tibbi xüsusiyyətlərə diqqət yetirilməlidir.

Aybaşı və seksuallıq: Aybaşı adətən Daun sindromlu qızlarda bir az gecikir. Aybaşı adətən vaxtı-vaxtında olsa da, buna baxmayaraq, aybaşı tskli ovulyasiyaya qadir deyildir. Daun sindromu olan qadınların dünya ədəbiyyatında hamilə qaldıqları haqqında təxminən otuz fakt qeydə alınmışdır.

Daun sindromlu qadınların aybaşı və ovulyası prosesinə cərrahi müdaxilənin və dərmanların təsiri uzun müddətdir ki, var. Qadınların ehtiyacları və aybaşı gigiyenası mövzusu barədə demək olar ki, az maarifləndirmə işləri aparılır. Buna görə də hazırda bu mövzuya görə valideynlər kifayət qədər məlumat ala bilmirlər. Həmçinin Daun sindromlu qızlar belə vəziyyətlərdə psixoloji sarsıntı yaşayırlar.

Erkən gənc yaşlı Daun sindromlu oğlanlar həmyaşıdları kimi cinsi istəkləri olur. Daun sindromlu kişilərin ata olmaq şansı çox azdır. Çox vaxt həkimin məsləhəti ilə cinsi istəyi azaldan dərmanlardan istifadə olunur.

Cinsi tərbiyə mövzusunda maarifəndirmə işlərinin aparılması çox vacibdir. Daun sindromlu gənclər üçün cinsi tərbiyə haqqında düzgün məlumatların olmaması onlar üçün çətinlik yaradan səbəblərdən biridir. İstər qızlar, istərsə də oğlanlar bu mövzu haqqında yetərsiz biliklərə sahib olurlar. Qizlar analarına tez-tez hamiləlik haqqında, evlənmək haqqında suallar verirlər. Bu kimi suallardan valideyn yan keçməməli, onların anlayacağı tərzdə cavablandırmalıdır. Daun sindromlu uşaqların valideynləri uşaq vaxtından onların cinsiyyət təzahürləri və cinsi davranışı ilə bağlı narahat olurlar. Daun sidromlu insan öz cinsi istəklərini idarə edə biləcəyi və qəbul olunmuş sosial davranış normaları çərçivəsində özünü saxlaya bilib-bilməyəcəyi onları maraqlandırır. Uşağın böyüməsini təxirə salmaq mümkün deyil. Əvvəlki dövrlərdə olduğu kimi, erkən yaşlı gənclərlə də münasibətlərdə səbrli olmaq və onun onda baş verən dəyişikliklərə asan olmayan uyğunlaşmasını asanlaşdırmaq lazımdır.

Dəri problemləri: Daun sindromlu uşaqların dərisi adətən çox quru olur. Erkən gənclik dövründə isə əvvəlki dövrlərə nisbətən fölikulitlər və yaralar daha çox yaranır. Saçlarının seyrəlməsi bu dövrdə daha çox sürətlənməyə başlayır.

Psixoloji sarsıntılar: Bu dövrdə demək olar ki, Daun sindromlu gənclərin əksəriyyətində psixoloji narahatlıqlar yaranır. Bu vəziyyətlər psixiatrlar üçün çətin olsa da, bu istiqamət üzrə ixtisaslaşan mütəxəssislərin köməyilə yaranan problemlər həll olunur. Psixiatrların yazdığı dərmanlarla yanaşı, həm də psixoloji terapiyaların aparılması vacibdir. Psixioloji problemlərin yaranması Daun sindromlu gənclərin cəmiyyətə adaptasiya olunmasına da təsirsiz ötüşmür. Belə ki, yaranmış psixoloji pozğunluqlar onları ruhdan salaraq geriləmələrinə səbəb olur.

Psixoloji və psixiatrik disfunksiya Daun sindromlu gənclərin əksəriyyətində görünən böyük problemlərdəndir. Bəzi Daun sindromlu gənclərdə depressiya, obsesiv-kompulsiv və psixoloji pozğunluqlar erkən gənclik dövründə daha da kəskinləşir. Bununla yanaşı, onlar emosional və özünəqapanma halları yaşayırlar.

Sürətli geriləmə (regressiya): erkən gənc yaşlı Daun sindromlu şəxslərin bəzilərində gündəlik yaşam bacarıqlarının sürətlə geriləməsi baş verir. Bu halların baş vermə səbəbi dəqiq məlum deyil və korreksiyası çox vaxt təkrar metodlarla aparılır. Regressiyanın əmələ gəlməsi

üç səviyyədə olur (ağır, orta və yüngül əqli gerilik). Xəstələr bir çox qabiliyyətlərini itirirlər. Bunlara aiddir: gündəlik həyat fəaliyyətində qismən və ya ümumi müstəqilliyin itirilməsi (geyim, tualet, yemək və özünənəzarət), nitqin geriləməsi (səssizlik, pıçıldama və s) və akademik biliklərin itirilməsi. Adətən regressiyadan əvvəl xəstələrdə şiddətli depressiya halları müşahidə olunur. Aparılan düzgün müalicə və defektoloji iş nəticəsində bu halları keçirənlərin təxminən yarısı qismən bərpa olunur.

Müasir dövrümüzdə get-gedə daha çox aydın olur ki, Daun sindromlu insanlar böyük potensiala malikdirlər, əgər erkən uşaqlıq çağından onların hərtərəfli inkişafı üçün şərait yaradılarsa, onlar özlərini həm şəxsi, həm də sosial planda təsdiq edə bilərlər. Bütün normal insanlar kimi onların da öz həyatlarını aktiv şəkildə, tam və layiqincə yaşamaq şansları vardır. Onlara sevinmək və kədərlənmək, xoşbəxtlik və əziyyəti dadmaq, kiməsə bağlanmaq və qurban vermək, öz təcrübəsini qavramaq və əldə etmək kimi xüsusiyyətlər verilmişdir.

**Məqalənin aktuallığı**. Erkən gənc yaşlı Daun sindromlu şəxslərin özünəməxsus psixi və fiziki xüsusiyyətləri vardır. Normal həm yaşıdlarından fərqli olaraq onlar daha çox ətraf təsirlərə məruz qalırlar. Bu zaman bir çox şikayətlər qeyd olunur: fiziki quruluşda və psixi inkişafda vaxtından əvvəl başlayan geriləmə.

**Məqalənin elmi yeniliyi**. Erkən gənc yaşlı Daun sindromlu şəxslərin işləmək bacarığı vardır. Aparılan düzgün işlər nəticəsində onların psixi və fiziki xüsusiyyətləri nəzərə alınaraq müəyyən peşələrə istiqamətləndirmək olar. İşlə təmin olunma iqtisadiyyatında inkişafına müsbət təsir göstərəcəkdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Daun sindromlu gənclərin hərtərəfli öyrənilməsi hal-hazırda diqqət mərkəzindədir. Onların cəmiyyətə inteqrasiyası və peşə reabilitasiyası üçün bu mövzunun geniş tədqiqinə ehtiyac duyulur. Bu sahə ilə tibb işçiləri, psixoloqlar, defektoloqlar, loqopedlər, sosial işçilər daha çox maraqlanır. Hal-hazırda bir çox inkişaf proqramları var ki, müasir dünya ədəbiyyatında onlar haqqında geniş məlumat verilmişdir.

## Ədəbiyyat

1. Журнал «Синдром Дауна. XXI век», 2017, № 2.
2. Prasher V. Disintegrative syndrome in young adult. Irish J. Psychol. Med. 2002.
3. Capone G., Goyal P., Ares W., Lannigan E. (2006). Neurobehavioral disorders in children, adolescents, and young adults with Down syndrome. *Am. J. Med. Genet. C Semin. Med. Genet.*
4. Valideynlər üçün müntəxəbat. 1997-2008-ci illərdə “Addım at” jurnalında dərc olunmuş məqalələr toplusu, 2008.

**Г. Бадалзаде**

## Психические и физические особенности подростка с синдромом Дауна

## Резюме

Даун синдром является одним из наиболее распространенных состояний, вызванных аутосомной хромосомной аномалией, которая встречается примерно у 1 из 800

новорожденных детей.

Подростки с синдромом Дауна отличаются от своих сверстников. В этот период подростки с синдромом Дауна имеют множество умственных и физических трудностей. Пример: проблемы с кожей, сексуальность, депрессия, обсессивно-компульсивная, регрессия. Некоторые из них независимы и имеют работу. Но любой подросток нуждается в особой заботе.

**G. Badalzade**

## Mental and physical features of the adolescent with Down syndrome

## Summary

Down syndrome is one of the most common conditions caused by autosomal chromosomal abnormality, which occurs in approximately 1 in 800 newborn children.

Adolescents with Down syndrome are different than their peers. In that period adolescent with Down syndrome have many mental and physical difficulties. Example: skin problems, sexuality, depressive, obsessive-compulsive, regression. Some of them are independent and have work. But any adolescent need special care.

**Redaksiyaya daxil olub:** 02.10.2018